*Vətən Müharibəsi Qəhrəmanı*

# Qaçaq Nəbi yurdunun qoçaq oğlu

**O, uşaq yaşlarından güləşə maraq göstərmiş, Novruz bayramlarında doğma yurdu Qubadlıda qarazurnanın sədaları altında qurşaq tutan pəhləvanların cövlanından vəcdə gəlmiş, özü də idman müəllimi və məşqçi Elbrus Qayalının bölməsinə gedərək yunan-Roma güləşinin sirlərini öyrənmişdi. Hələm-hələm yaxasını ələ verməz, rəqiblərinin kürəyini yerə vurmaqda qarşısıalınmaz inadkarlıq göstərərdi.**



Birinci Qarabağ savaşında qardaşları və yenilməz güləşçi kimi tanınan eloğlusu Əlyar Əliyev (Milli Qəhrəman) döyüşlərə qatıldığı üçün Faiq Qasımov da Milli Ordu sıralarına yazılmaq istədi. Amma bu arzusuna yalnız 1992-ci ildə, yəni 18 yaşı tamam olandan sonra çatdı və "Pəhləvanlar taboru"nda topçu kimi qulluq etdi. Həmin ilin payızında komandiri və özündən 5 yaş böyük qardaşı Həsənqulu Qasımov (Həsən Qorxmaz) şəhid olandan sonra Faiq and içdi ki, onların qanını yerdə qoymayacaq.




Bu yolda digər qardaşları Əhliyyət və Gəray da yaralanıb qazi oldular. Sonra sənədlərini Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə verən Faiq oxuyub motoatıcı zabit oldu və Naxçıvan, Balakən, Mingəçevir, Füzuli ərazilərindəki hərbi hissələrdə 28 il qulluq etdi. Digər təltiflərlə bərabər, hər üç dərəcədən olan "Qüsursuz xidmətə görə" medallarına layiq görüldü. Qubadlı işğal olunandan sonra Faiqgil elliklə Sumqayıta pənah gətirdi. Xidmətarası vaxt tapıb Sumqayıta ailəsinin yanına hər gələndə həm məşqçi-müəllimi Elbrus Qayalı ilə görüşür, həm də mütləq ilk komandiri – Milli Qəhrəman Əlyar Əliyevin adını daşıyan güləş zalına baş çəkir, xatirəsini ehtiramla yad edirdi.

Faiq məlum Aprel döyüşlərində də iştirak etmiş, cəbhənin Tərtər və Cəbrayıl–Füzuli istiqamətində şiddətli döyüşlərdə hünər göstərmişdi. Həmin döyüşlərin nəticəsindən xeyli ruhlanmış və həlledici qisas gününün yaxınlaşdığını hiss etmişdi. Nəhayət, İkinci Qarabağ müharibəsində Faiq Qasımov cəmi 1 gün ərzində sözünə əməl edə bildi: qisas almağı bacardı, lakin özü də şəhadətə yüksəldi. Elə sentyabrın 27-dən 28-nə keçən gecə Füzuli rayonu uğrunda aparılan hərbi əməliyyatlarda şəhid oldu. Qisasını aldıqlarının yanına üzüağ getdi. Vətən müharibəsində qismətinə yazılmış 1 günlük döyüş sınağından mətanətlə çıxan polkovnik-leytenant Faiq Qasımov Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb. O, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Müəllim, məşqçi, həm də şair kimi tanınan dostumuz Elbrus Qayalının əbədiyyətə qovuşmuş igid yetirməsi haqqında dedikləri:**

– Kəndimizin sevimli oğlu Faiq qulluq yerindən tez-tez mənə zəng edib hal-əhval tutar, Vətənə şərəfli xidmətindən danışardı. Söhbətlərindən duyurdum ki, qisas hissi heç vaxt onu tərk etmir. Özü də əsgərlərinə kiçik qardaşları kimi qayğı ilə yanaşır, hamısının qorxmaz, dönməz iradəli olması üçün nümunə göstərirdi. Son telefon söhbətimizin səs yazısını yadigar saxlayıram. Dedi ki, qismət olsa, Məkkəmiz, Mədinəmiz Qubadlıda görüşərik... Onun qəhrəmancasına həlak olduğu xəbərini eşidincə özümdən asılı olmayaraq ağladım və göz yaşlarım muncuq-muncuq şeir misralarına düzüldü. Beləcə, onu sözlə oxşadım:

***Düşmən bağlasa da bərə, bəndini,***
***Hər an arzulardın doğma kəndini.***
***Heç vədə əymədin o şux qəddini,***
***Heyif səndən, heyif səndən, ay Faiq...***

***Ə.DOSTƏLİ***
***XQ***